


# Regionun ən modern ordusu

**"Bu altı ay ərzində hərbi sahədə də islahatlar aparılıb. Struktur islahatları aparılıb, hərbi təhsildə islahatlar aparılıb. Təlimlərlə bağlı ciddi addımlar atılıb. Yeni silahlı birləşmələr yaradılıb. Yeni kontraktlar imzalanıb, hərbi texnika, silah-sursatlar alınır və alınacaq. Biz ordu quruculuğu sahəsində öz işlərimizi davam etdiririk...". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bildirib.**

Böyük Zəfərdən sonra da Azərbaycan Silahlı Qüvvələrinin döyüş imkanlarının yüksəldilməsi prioritet olaraq qalır. Azərbaycanda ordu quruculuğu, qoşunların döyüş hazırlığının yüksəldilməsi həmişə mühüm məsələlərdən biri olub. Çünki torpaqlarımızın 30 illik işğalı dövründə ordumuzun gücləndirilməsi əsas vəzifə olaraq qarşıda dururdu. Ordumuz döyüş qabiliyyətini daimi olaraq artırmalı, modernləşməli, ən son hərbi texnologiyalara yiyələnməli idi. Bütün bunlar isə 2020-ci ilin Vətən müharibəsində qazanılan möhtəşəm hərbi qələbənin əsl təminatçısı oldu.

Altı ayın yekunlarına həsr olunan müşavirədə dövlət başçısı postmüharibə dövründə ordu quruculuğu istiqamətində aparılan islahatlardan danışarkən ölkənin artan "iqtisadi və maliyyə imkanlarının bir hissəsi"nin məhz bu məsələlərə yönəldiyini, büdcədə hərbi xərclərin əhəmiyyətli dərəcədə artırıldığını söylədi: "Nə üçün? Deməli, buna əsas var. Biz hərbi xərclərimizi keçən il bu ilin büdcəsi təsdiq olunanda təsbit etmişdik və hesab edirdik ki, bu, kifayətdir... hesab edirik ki, hərbi xərcləri artırmaq lazımdır... Nə qədər lazımdırsa, o qədər də artıracağıq. Çünki biz müharibə nədir, işğal nədir yaxşı bilirik və təhlükə nədir onu da yaxşı bilirik. Hər an hazır olmalıyıq ki, öz hüququmuzu istənilən yolla təmin edək".

Vətən müharibəsində Azərbaycan Ordusu döyüş meydanında böyük rəşadət və şücaət nümayiş etdirdi. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşməsi ilə bağlı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə həyata keçirilən hərbi strategiya və taktikanın səmərəliliyi döyüş meydanında əhəmiyyətli nəticə verdi. Lakin Azərbaycan Vətən müharibəsindən sonra da ordu quruculuğu, qoşunların döyüş hazırlığının daha da artırılması prosesini dayandırmayıb. Postmüharibə ili olan 2021-ci ildə ordumuzun döyüş imkanlarının artırılması istiqamətində islahatlar davam etdirilib. Hərbi quruculuq, bütün qoşun növlərinin texnika və silah-sursatla təchizatının modernləşdirilməsi, hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması üçün bu sahəyə ayrılan maliyyə vəsaitləri artırılıb. Yeni imzalanmış müqavilələr əsasında Azərbaycana ən müasir hərbi texnika, silah-sursat gətirilib. Ötən ildən etibarən Azərbaycan Ordusu üçün yenilik olan komando briqadalarının yaradılmasına başlanıb. Yüksək döyüş hazırlığına malik bu hərbi hissələrin şəxsi heyəti istənilən hərbi vəzifəni icra etməyə qadirdir. Yeni komando birliklərinin yaradılması ordumuzun gücünü əhəmiyyətli dərəcədə artırıb. O cümlədən, qoşunların yüksək döyüş hazırlığını təmin etmək məqsədilə hərbi təlimlərin keçirilməsi də davamlı şəkil alıb. Əməliyyat-taktiki təlimlər göstərir ki, döyüş qabiliyyətinin gücləndirilməsi, şəxsi heyətin döyüş vərdişlərinin yüksəldilməsi hər zaman prioritetdir. Hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirləri diqqətə çatdıran dövlət başçısı demişdir: "Hərbçilərin sosial müdafiəsi məsələləri də Azərbaycanda yüksək səviyyədə təmin edilir. Hərbçilərin həm xidmət şəraiti, həm mənzil şəraiti haqqında bir çox məlumatlar var. Azərbaycanda bu sahədə görülən işlər deyə bilərəm ki, dünyada nadir hallarda təkrarlanır. İndi qüsursuz xidmət edən hərbçilərə dövlət tərəfindən mənzillər verilir. Bizim bütün hərbi şəhərciklərimiz əsaslı şəkildə təmir edilir, onun haradasa 90 faizi yenidən qurulub. O cümlədən, azad edilmiş torpaqlarda nə qədər böyük işlər görülüb - hərbi şəhərciklər, bazalar, hərbi təyinatlı yollar, infrastruktur - biz bunu o ağır iqlim şəraitində edirik".

**(davamı 5-ci səhifədə)**



# Regionun ən modern ordusu

(əvvəli 1-ci səhifədə)

Təbii ki, müharibə böyük təcrübə oldu. Bu gün ordumuzun döyüş qabiliyyətinin artırılması ilə bağlı görülən tədbirlərdə bu amilin böyük rolu var. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlət başçısı: "Yeni silahlı birləşmələr yaradılıb", - deyərkən komando briqadalarını nəzərdə tuturdu. Bəli, müharibənin 44 gününün dərindən təhlili ordu quruculuğu prosesinin real vəziyyətə əsaslanaraq aparılmasını zərurətə çevirdi. Beləcə, daha müasir texnikanın alınması ilə bərabər, yeni qoşun növü - komando birlikləri də yaradılıb. Hadrutda birinci komando hərbi bazasının açılışında dövlət başçısı da iştirak etmişdir.

Xocəvənd rayonunun Hadrut qəsəbəsində hərbi hissənin açılışında iştirak edən Prezident, Ali Baş Komandan hərbi hissəyə döyüş bayrağını təqdim edərkən demişdir: "... bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə artırmışıq... Komando briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar".

Bu il Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonunda da daha bir komando birliyi fəaliyyətə başladı. Hərbi hissənin açılışında döyüş bayrağının təqdimatı zamanı çıxış edən Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun gündən-günə artan döyüş qabiliyyətindən, eyni zamanda müharibədən sonra işğaldan azad edilmiş torpaqlarda bərpa-quruculuq işlərindəki fəaliyyətindən danışmış, onların xidmətini yüksək qiymətləndirmişdi.

Müşavirədə Prezident, həmçinin müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemlərinin daim diqqət mərkəzində olduğunu, bununla bağlı müvafiq göstərişlərin verildiyini də bildirdi: "Müharibədə əlil olmuş demək olar ki, bütün hərbçilər artıq ən müasir protezlərlə təmin olundular. Dördüncü nəsil protezlər - o protezlər ki, insan rahat yaşaya bilər, gəzə bilər, hətta futbol oynaya bilər, qaça bilər. Biz bunu edirik. Bu, çox bahalı texnikadır və o texnologiya elədir ki, vaxtaşırı dəyişdirilməlidir. Çünki öz sağlamlığını itirmiş hərbçilər dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır. Dövlət bunu edir və yerlərdə məmurlar da bunu heç vaxt unutmamalıdır".

Onu da qeyd edək ki, müharibə iştirakçılarının, şəhid ailələrinin problemlərinin həlli dövlətimizin başçısı tərəfindən diqqətdə saxlanılır, onlar mənzillərlə, avtomobillə təmin olunur, reabilitasiya mərkəzlərində xidmətin səviyyəsi yüksəldilir.

Hərbi sahədə görülən bütün işlər Azərbaycan Ordusunun peşəkarlığını, döyüş qabiliyyətini artırmaqla yanaşı, onun dünyanın ən güclü orduları arasında mövqeyinin də möhkəmlənməsinə təsir göstərib. Məhz buna görədir ki, ötən ilin sorğularına əsasən, Azərbaycan Ordusu regionun ən modern ordusu kimi qiymətləndirilib.

Azərbaycan Ordusunun dinamik inkişaf tempi olduqca yüksəkdir. Prezident İlham Əliyevin dediyi kimi, biz ordumuzu bundan sonra da gücləndirəcəyik. Dünyada olan ən müasir silahlar Azərbaycana gətiriləcək. Bu sahədə atılacaq addımlar, təbii ki, daha çevik, yüksək döyüş qabiliyyətli ordunun formalaşmasına gətirib çıxaracaqdır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**